Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi

Azərbaycan
Tibb Universiteti

RIPHAH
INTERNATIONAL
UNIVERSITY

ICME
International Conference
On Medical Education

CLIQ
Center of Excellence

SOME

ALSS

# TİBB TƏHSİLİ ÜZRƏ BEYNƏLXALQ KONFRANS

Tibb təhsilinin transformasiyası: tendensiyalar, problemlər və həllər

## İNFORMASİYA PAKETİ

ICME AZƏRBAYCAN

## 2023

UPTODATE
IN MEDICINE
*Healthcare Consulting Solutions*

# Tibb Təhsili üzrə 8-ci Beynəlxalq Konfrans (İCME)

ICME 2023-cü ilin 7-10 oktyabr tarixlərində ilk dəfə olaraq Azərbaycanda keçiriləcəkdir. Konfrans Səhiyyə Nazirliyi, Azərbaycan Tibb Universiteti, Tədqiqat və Təhsil üzrə Riphah Akademiyası və Riphah Beynəlxalq Universiteti tərəfindən birgə təşkil edilir.

**ICME 2023 konfransında:**

✓ Tibb təhsili sahəsində dünyanın 30-dan çox tanınmış eksperti ən maraqlı və aktual mövzularda məruzələrlə çıxış edəcək,

✓ Simpoziumda tibb təhsilinin bütün aspektlərini, o cümlədən qiymətləndirmə, simulyasiya əsaslı təlim, səriştələrin öyrədilməsi, koqnitiv bacarıqların aşılanması, kompüter texnologiyaları və süni intellektin tətbiqi kimi günümüzün aktual məsələləri müzakirə ediləcək,

✓ "Ekspertlər Nə Deyir?" sessiyalarında tibb təhsili və təliminə dair ən qabaqcıl və yeni yanaşmaları və təcrübələr təqdim olunacaq,

✓ Dünyanın 20-dən çox ölkəsindən gələcək 400 iştirakçı ilə əməkdaşlıq qurmaq, ən yaxşı təcrübələri paylaşmaq və uzunmüddətli tərəfdaşlıq əlaqələri qurmaq üçün imkan yaradılacaqdır.



# İCME 2023
## Konfransında iştirak üçün şərtlər

| Kateqoriyalar | Yerli iştirakçılar (Azərbaycan və Pakistan) | Aşağı gəlirli ölkələr | Orta gəlirli ölkələr | Fakültə və PhD RIPHAH və ATU tələbələri | Universitet tələbələri və diplomdansonrakı təhsil tələbələri |
|---|---|---|---|---|---|
| **Konfransöncəsi məşğələ** | **60 $** | **100 $** | **150 $** | **40 $** | **40 $** |
| **Birgünlük kurs** | **80 $** | **120 $** | **200 $** | **50 $** | **50 $** |
| **İkigünlük kurslar** | **100 $** | **150 $** | **250 $** | **60 $** | **60 $** |
| **Konfransa erkən qeydiyyat** (1 avqust 2023-cü il tarixinədək) | **120 $** | **200 $** | **300 $** | **80 $** | **80 $** |
| **Konfransa adi qeydiyyat** (1 avqust 2023-cü il tarixindən sonra) | **150 $** | **250 $** | **375 $** | **80 $** | **80 $** |
| **05 iştirakçı üçün Erkən qeydiyyat zamanı Müəssisə qrupu endirimi** | **96 $** | **160 $** | **240 $** | **80 $** | **80 $** |
| **10 iştirakçı üçün Erkən qeydiyyat zamanı Müəssisə qrupu endirimi** | **84 $** | **140 $** | **210 $** | **80 $** | **80 $** |
| **Qala Yeməyi** | **50 $** | **50 $** | **50 $** | **50 $** | **50 $** |



# TİBB VƏ TƏHSİL SƏRGİSİ

**2500 AZN**

## DÖVLƏT ALİ VƏ ORTA TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜÇÜN

- ✓ Sponsorun 2 ədəd 2x0.85 ölçüdə roll-up-ının tədbir zamanı yerləşdirilməsi və ya şirkətin/təhsil müəssisəsinin özünün hazır stendi
- ✓ Sponsor şirkətin 1 nümayəndəsinin tədbirdə iştirakı



**3500 AZN**

## ÖZƏL TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜÇÜN

- ✓ Sponsorun 2 ədəd 2x0.85 ölçüdə roll-up-ının tədbir zamanı yerləşdirilməsi və ya şirkətin/təhsil müəssisəsinin özünün hazır stendi
- ✓ Sponsor şirkətin 1 nümayəndəsinin tədbirdə iştirakı





## 3X2 SƏRGİ SAHƏSİ

# ABSTRAKT & MƏQALƏLƏRİN TƏQDİM EDİLMƏSİ ÜZRƏ TƏLİMAT

## Şifahi və ya poster təqdimatlar

**Mövzular**

2023-cü il üçün abstraktların təqdim edilməsi prosesini sadələşdirmək və Elmi Komitəyə konfrans iştirakçılarının maraqlarına uyğun olanları seçməkdə maksimum çeviklik yaratmaq məqsədilə əvvəlcədən müəyyən edilmiş konfrans mövzularını bir neçə daha geniş təhsil mövzuları ilə əvəz etdik.

Abstrakt üçün seçdiyiniz mövzu onun hansı rəyçilərə göndəriləcəyini və şifahi və ya poster təqdimatları siyahısına daxil edilməsi barədə qərarın verilməsini müəyyən edəcəkdir. Lütfən, abstraktın mövzusunu seçərkən diqqətli olun. Bəzi təqdimatlar birdən çox mövzunu əhatə etdiyi hallarda, ən uyğun olanını seçməyiniz tövsiyə olunur.

Elmi Komitənin və ATU Jurnalının redaksiya heyətinin qərarlarına əsasən abstraktınız ya şifahi, ya da poster təqdimatı üçün seçilə bilər. Bütün seçilmiş abstraktlar həmçinin Konfransın Abstraktlar Toplusu kimi ATU jurnalında dərc ediləcəkdir.



✓ **Mövzu 1. Qiymətləndirmə:**

Yazılı testlər, klinik imtahanlar və iş yerində qiymətləndirmə, həmçinin fəaliyyətin qiymətləndirilməsi daxil olmaqla, tibb/səhiyyə peşələrində qiymətləndirmə və əks-əlaqənin bütün aspektlərini əhatə edir.

✓ **Mövzu 2. Öyrənmənin layihələndirilməsi və planlaşdırılması:**

Kurslar və kurrikulumun hazırlanması, mövzu seçimi, tədrisin verilməsi metodologiyası, ehtiyacların qiymətləndirilməsi və fəaliyyət, kurs və ya kurikulum səviyyələrində planlaşdırma prosesinin hər hansı digər aspektlərinə yanaşmalar daxildir.

✓ **Mövzu 3. Təhsil və İdarəetmə:**

Ali və orta tibb təhsili müəssisələri, habelə digər özəl və dövlət təlim mərkəzlərinin qarşısında duran mühüm məsələləri əhatə edir. Təlimlərin müəyyən edilməsi və öyrəncilərdən asılı olaraq uyğunlarının seçimi, təlimçilərin hazırlanması və müvafiq təlimlər üçün seçimi, təlimlərin və tədrisin təşkili, keçirilməsi və monitorinqi məsələləri də bu mövzuya daxildir.

✓ **Mövzu 3. Bərabərlik, Müxtəliflik və İnklüzivlik:**

Stiqma (qərəz) və stereotiplərə qarşı mübarizə, səhiyyə və tibb təhsilində iştirakın genişləndirilməsi və təkmilləşdirilməsi kimi məsələləri əhatə edir.

✓ **Mövzu 4. Pedaqoji heyətin inkişafı**

Bu mövzuda təqdim olunan abstraktlar, istər fərdi, istərsə də təşkilati səviyyədə tibb işçilərinə təlim-təhsil verən pedaqoji heyətin peşəkar inkişafı ilə bağlı olmalıdır. Bu mövzu, həmçinin səhiyyə sahəsində çalışan müəllimlərin fəaliyyətinin qiymətləndirilməsi və pedaqoqların karyera yüksəlişi kimi mövzuları əhatə edir.

✓ **Mövzu 5. Peşələrarası və Komanda əsaslı Öyrənmə:**

Peşələr və ya fənlər üzrə öyrənməni təşviq etmək üçün xüsusi olaraq hazırlanmış tədqiqatlar və ya təşəbbüslər, eləcə də daha çox komanda işini təşviq etmək məqsədi daşıyan fəaliyyətlər əhatə olunur.

✓ **Mövzu 6. Xəstə Təhlükəsizliyi:**

Bu mövzu pasiyent təhlükəsizliyi üzrə təhsil və təlimlə bağlıdır. Məsələn, xəstə təhlükəsizliyinin təhsil proqramlarına və praktikumlara necə daxil edilə biləcəyi və ya xəstə təhlükəsizliyinə dair əlçatan olan milli və beynəlxalq hesabatlar və ya statistik məlumatlar əsasında öyrənmə kimi məsələlər bura daxildir. Keyfiyyətin yaxşılaşdırılması məsələləri, habelə tibb təhsilində insan amilinin nəzərə alınması kimi məsələlər də bu kateqoriyaya aiddir.

✓ **Mövzu 7. Simulyasiyalar və interaktiv öyrənmə:**

İstənilən səviyyədə, yüksək texnolojili və ya aşağı texnolojili klinik və fundamental elmlər üzrə simulyasiyalar əsasında tədris və öyrənmə bu kateqoriya ilə əhatə olunur. O cümlədən, simulyasiya mərkəzlərində aparılan və ya simulyasiya edilmiş təcrübəni klinik tədris proseslərinə inteqrasiyasını təmin edən xüsusi hazırlanmış "nümunəvi pasiyentlər", kompüter və ya smartfon əsaslı simulyasiya oyunları və ya klinik hal idarəetmə sistemləri kimi mevzular da bura aiddir.

✓ **Mövzu 8. Tələbələrə dəstək:**

Bu mövzuya öyrənənlərin necə və nəyi öyrənmələrinə təsir edə biləcək bütün məsələlər daxildir. Buraya tələbələrin həvəsləndirilməsi, dəstəyi və məşğulluğuna yardım proqramları, stress, rifah və tükənmişlik kimi halların menecmenti mövzuları, eləcə də öyrənmə mühitini, öyrənənlərin xüsusiyyətlərini və seçimlərini araşdıran və təhlil edən tədqiqatlar daxildir.

✓ **Mövzu 9. Davamlılıq:**

Bu mövzu tibb təhsili sahəsinin bütün mərhələlərində, o cümlədən tədris, öyrənmə və ya qiymətləndirmənin bütün aspektlərində davamlılığın təşviqini əhatə edir. O, xüsusən də planetin mühafizəsi ilə yanaşı, hazırkı və gələcək nəsillərin sağlamlığını, insan hüquqlarını və rifahını davamlı şəkildə təşviq edilməsi üçün tələbələri və ya müəllimləri müvafiq bilik, bacarıq, dəyərlər, səriştə ilə təchiz etmək üçün müvafiq təşəbbüsləri əhatə edir.

✓ **Mövzu 10. Tədris və öyrənmənin dəstəklənməsi:**

Bu kateqoriyaya təqdim olunan abstraktlar, istər üz-üzə, istər onlayn və hibrid (qarışıq) formatda tibb və səhiyyə təhsilinin təmin olunması məsələlərini əhatə edir. Tədrisin formatı, metodları, qruplarda tələbə sayı, qrupların idarə olunması kimi məsələlər də bu kateqoriyaya aiddir.

✓ **Mövzu 11. Öyrənmənin texnologiya ilə dəstəklənməsi:**

Tədris və öyrənməni təkmilləşdirmək üçün yeni texnologiyalardan istifadəyə xüsusi diqqət yetirilir. Bu kateqoriyaya təqdim edilən abstraktlar innovativ məzmun çatdırılması, birgə öyrənmə, sosial media, virtual və qarışıq reallıq mühitləri, oyunlaşdırma və süni intellektin tətbiqi kimi müxtəlif cihaz və yanaşmalardan istifadə etməklə tibb sahəsində öyrənmənin dizaynı, çatdırılması və həyata keçirilməsini əhatə edir.

## Mütəxəssis Kateqoriyası.

**Cərrahi Təhsili:**

Tibb təhsilinin bütün pillələrində cərrahiyyənin tədrisi, öyrənilməsi və cərrahi bilik və səriştələrin qiymətləndirilməsi və davamlı peşəkar inkişaf məsələləri burada əhatə olunur.

**Diplomdan sonrakı və həyat boyu təhsil**

Həkimlərin və orta tibb personalının davamlı təhsili və təkmilləşdirilməsi məsələləri, habelə rezidentura, aspirantura hazırlığı məsələləri bura aiddir.


**ƏLAQƏ**

+994 50 225 15 04

+994 50 243 86 71


**QEYDİYYAT**

www.icme-riphah.org

# ABSTRAKT/TEZİSİN NÜMUNƏVİ FORMATI

### Müəlliflər

Müəllif(lər)in adları, iş yer(lər)i, şəhər və ölkə adı. Lütfən, adların və  iş yerlərinin adlarının düzgünlüyünü yoxlayın.
İCME və ATUJ müəllif və ya digər bioqrafik məlumatlardakı səhvlərə görə məsuliyyət daşımır.

### Abstraktın hazırlanması

Mətndə qısaltmalar və ya abbreviaturalardan istifadə etməyin. Abstrakt mətni 350 sözdən çox ola bilməz.

### Başlıq

Abstrakt adı qısa olmalı və elmi qaydalara uyğun təqdim edilməlidir. Abstraktın adı normal şriftlə yazılmalıdır. Xüsusi simvollardan istifadə etməyin.
Zəhmət olmasa, ilk sözün birinci hərfindən başqa abstraktın başlığını böyük hərflə yazmayın, başlığı tamamlamaq üçün nöqtədən istifadə etməyin.
Başlıqda heç bir brend, ticari ad və ya məhsul adından istifadə etməyin. ATUJ və İCME müəllifin razılığı olmadan konfransın təlimatlarına uyğun olaraq, abstrakt başlıqlarını tənzimləmək hüquqlarını özündə saxlayır Abstraktınızın mətni 350 sözdən çox olmamalıdır (cədvəl və şəkillər istisna olmaqla).

### Məqsəd

Burada abstraktın məqsəd və vəzifələrini təsvir edin.

### Metodlar

Metodlar bölməsində tədqiqatın aparıldığı yer, istifadə edilən üsullar, məlumatları toplanması və analitik metodlar haqqında minimum tələb olunan məlumatlar təqdim edilməlidir.

### Nəticələr

Bu bölmədə abstraktınızdan irəli gələn nəticələri təsvir edin
Şəkillər/Qrafiklər/Cədvəllər.
Zəhmət olmasa, 3-ə qədər şəkil seçmək üçün aşağıdakı rəqəm yükləmə sahələrindən istifadə edin. Şəkil bölmələri şəkilləri, qrafikləri və ya cədvəlləri yükləmək üçün istifadə edilə bilər.
Qəbul edilən formatlar: JPEG və ya PNG.
Ölçü: 1000x1000 piksel maks.
Fayl ölçüsü: 5 MB-a qədər. İcazə verilən ölçülərdən daha böyük şəkillər jurnal redaksiyası tərəfindən dəyişdiriləcək.
Abstraktınızı təqdim etməzdən əvvəl yüklənmiş materialların oxunaqlılığına əmin olmaq üçün onu iki dəfə oxuyaraq yoxlayın.

# TƏŞKİLATİ DƏSTƏK

"Uptodate in Medicine" şirkəti Azərbaycanda və Cənubi Qafqazda tibb təşkilatlarının inkişafı, səhiyyənin idarəetməsi, elektron səhiyyə və tibbi xidmətlərin planlaşdırılması və təkmilləşdirilməsi, tibbi təhsil və təlimin müasirləşdirilməsi sahəsində geniş təcrübə və ekspertizasını təklif edir.

Şirkət kiçik və böyük, dövlət və özəl tibb müəssisələrinə, fərdi pratikası olan həkimlərə və həmçinin pasientlərə klinik, maliyyə və əməliyyat fəaliyyəti ilə bağlı hədəflərə nail olmaq üçün geniş spektr xidmətlər təklif edir. Klinik idarəetmə və Fəaliyyətin Təkmilləşdirilməsindən tutmuş Pasientlərin cəlb edilməsi və tibbi xidmətlərin əlçatanlığının artırılması, habelə gəlirlərin konsolidasiyası da daxil olmaqla, şirkətin milli və beynəlxalq mütəxəssisləri daha uğurlu olmaq yollarını Sizinlə bölüşməyə hazırdır.

UPTODATE IN MEDICINE
Healthcare Consulting Solutions

www.tibbikurslar.com • tibbikonsaltinq@gmail.com • T. +994502438671